Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Kütləvi məzarlıqlar erməni vandalizminin ifşa faktları kimi... Edilli, Fərrux...

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

**Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində dövlətimizə, xalqımıza, ərazilərimizə ölçüyəgəlməz zərər dəyib, həm maddi, həm də mənəvi cəhətdən ciddi ziyanlar toxunub. Bu gün həmin zərərin dəyəri hesablanmaqla bitmir.**



Bədnam qonşularımız torpaqlarımızı işğalda saxladığı müddətdə burada dəhşətli hadisələr törədib ki, torpaqlarımız işğaldan azad edildikdən sonra onlar bir-bir üzə çıxmağa başlayıb. Birinci Qarabağ Müharibəsində 4 minə yaxın vətəndaşımızdan hələ də bir məlumat yoxdur, onların taleyi naməlum olaraq qalır. Bizə hələ hər hansı bir beynəlxalq qurum onların taleyindən soraq vermir, halbuki, dövlət başçısı səviyyəsində bu məsələ dəfələrlə gündəmə gətirilib və səsləndirlib. Amma hələ də Ermənistan itkin düşən vətəndaşlarımız haqda hər hansı bir məlumat vermir…Ermənistan sussur, onu danışdırmağa cəhd göstərməli dövlətlər, beynəlxalq təşkilatlar, dünya ictimaiyyəti seyirçi mövqe tutur, Azərbaycan tərəf isə azad edilmiş ərazilərdən kütləvi məzarlıqlar aşkarlayır. Məlum olur ki, bu məzarlıqlarda bizim vətəndaşlarımız, hərbiçilərimiz dəfn edilib, özü də işgəncə ilə öldürülərək.

**Edillidə, Daşaltıda, Fərruxda, Sırxavənddə kütləvi məzarlıqlar…**

Bu günlərdə Hərbi Prokurorluqdan mətbuata bildirilib ki, işğaldan azad edilmiş torpaqlarda, o cümlədən Şuşa rayonunun Daşaltı, Xocavənd rayonunun Edilli, Ağdam rayonunun Sırxavənd kəndləri, eləcə də Xocalı rayonunun Fərrux kəndində və digər ərazilərdə Azərbaycan Respublikası Hərbi Prokurorluğunun əməkdaşları tərəfindən Dövlət Təhlükəsizliyi Xidmətinin, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının, Beynəlxalq Qızıl Xaç Komitəsinin və digər aidiyyəti qurumların nümayəndələri ilə birlikdə aparılmış müvafiq axtarış tədbirləri nəticəsində kütləvi məzarlıqlar aşkarlanıb. Qeyd edilib ki, Azərbaycan Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin 115.4-cü, 120.2.7-ci, 120.2.12-ci və digər maddələri ilə istintaq olunan cinayət işi üzrə məzarlıqlardan Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş şəxslərə məxsus olması ehtimal olunan 450-dən artıq insan meyitinin qalıqları çıxarılaraq ekshumasiya edilib. Həmin meyit qalıqları ilə bağlı 300-ə yaxın məhkəmə-tibbi və 280-dən artıq molekulyar-genetik ekspertizaları təyin olunaraq icraya yönəldilib. Eləcə də şahidlər dindirilib və digər zəruri istintaq-əməliyyat tədbirləri yerinə yetirilib…

**Bu cinayətlərə bütün dünya səsini ucaltmalıdır…**

Ekspertlər bildirirlər ki, azad olunmuş ərazilərimizdə aşkarlanan kütləvi məzarlıqlar insanlıq əleyhinə cinayətlərin təzahürü kimi, dünyanın diqqət mərkəzində olmalıdır. Məlumdur ki, Xocavənd rayonunun Edilli kəndi ərazisinə bu il fevralın 23-26-da baxış keçirilərkən kütləvi məzarlıqdan 7 şəxsə aid, sentyabrın 14-30-da isə 18 şəxsə aid insan sümük qalıqları aşkar edilib. Digər ərazilərimizdən də bu cür məzarlıqlar aşkarlanıb ki, bu barədə qeyd etmişik. Ekspertlər hesab edir ki, Edillidə, Fərruxda, Daşaltıda, Sırxavəndə və başqa kəndlərimizdə aşkarlanan kütləvi məzarlıqlar Azərbaycan xalqına qarşı ermənilər tərəfindən törədilən soyqırımı, etnik təmizləmələr, müharibə cinayətləri, insanlıq əleyhinə cinayətlər bütövlükdə bəşəriyyətə qarşı yönəlib və bu cunayətlərə bütün dünya səsini ucaltmalıdır. Ekspertlər qeyd edirlər ki, Edilli və digər kəndlərimizin ərazisində vətəndaşlarımıza aid kütləvi məzarlığın aşkar edilməsi erməni terrorunun gerçək simasını ehtiva edir.

**"İnsanın əl-ayağını məftillə bağlayıb qətlə yetirmək böyük bəşəri cinayətdir…"**

"Türk Dünyası İnfo" İctimai Birliyinin sədri Dəyanət Osmanlı bizimlə söhbətində bildirdi ki, bu gün Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbəni dünyada təbliğ etməklə yanaşı Ermənistan tərəfindən törədilmiş insanlıq əleyhinə cinayətləri də hərtərəfli şəkildə ifşa etməliyik. D.Osmanlı hesab edir ki, bu gün azad edilmiş ərazilərinizdə aşkarlanan kütləvi məzarlıqlar barədə beynəlxalq ictimaiyyətə geniş şəkildə informasiya verilməlidir. O, vurğuladı ki, son dövrlər ərazilərmizdən kütləvi məzarlıqların aşkarlanması Ermənistanın, ermənilərin vəhşiliyinin bariz nümunəsidir. Bu məsələnin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasının mühüm olduğunu deyən Birlik sədri qeyd edir ki, bunun üçün müxtəlif metodlardan istifadə edilməlidir. "Erməni vəhşiliyinin, vandalizminin qurbanı olan vətəndaşlarımız bu kütləvi məzarlıqlarda dəfn ediliblər. Rəsmi məlumatlardan da bird aha aydın olur ki, onlar çox böyük amansızlıqla qətlə yetiriliblər. Bu gün ölkəmizdə fəaliyyət göstərn diplomatik korpusların, beynəlxalq təşkilatların təmsilçilərinin, xarici jurnalistlərin həmin ərazilərə mütamadi səfərləri təşkil edilməlidir. Bu davamlı xarakter daşımalıdır ki, onlar gözləri ilə hər şeyi görsünlər. Əslində, vicdanı olan şəxslər bu məzarlıqların fotosunu, videosunu şəkib kiçik bir şərhlə onu sosial şəbəkə seqmentlərində də yaya bilərlər. Əlbəttə, bu çox vacibdir. Digər tərəfdən də, xaricədəki səfirliklərimiz, eləcə də disapor qurumlarımız bu sahədə aktiv olmalıdır. Videoxronikalar çəkib yaymaq olar, beynəlxalq tribunalardan bu vəhşətləri ifadə etmək lazımdır. Qonşu dövlətlər də mütamadi olaraq bu barədə məlumatlandırılmalıdır. Təsəvvür edin ki, Edillidə də, Fərrux kəndində də, başqa yerlərdə də aşkarlanan skeletlərin əlləri və ayaqları məftillə, kəndirlə bağlı olub. Bu barədə rəsmi məlumat yayılıb. Bu nə deməkdir? İnsanın əl-ayağını məftillə bağlayıb qətlə yetirmək böyük insani cinayətdir, müharibə caniləri bunu edə bilərlər. Necə ki erməni caniləri ediblər"-deyə bildirən müsahibimiz hesab edir ki, Ermənistanın insanlıq, bəşəriyyət əleyhinə olan bu cinayətləri beynəlxalq səviyyədə cəzasız qalmamalıdır, beynəlxalq hüquq nəhayət ki, faşist ölkəni cəzalandırmalıdır.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**